

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 17 (23.179)

*24 yanvar 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Yanvarın 23-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerin görüşü olub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə görüşüb.

* * *

Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "The Boston Consulting Group" şirkətinin prezidenti və baş direktoru Riç Lesser ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda "Lazard Freres" şirkətinin baş icraçı direktoru Metyu Piqas ilə görüşüb.

* * *

Prezident İlham Əliyevin yanvarın 23-də Davosda "VTB-Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin ilə görüşü olub.



## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının təsis olunmasının ildönümü qeyd edilib



Dünən bu münasibətlə keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə edib. O bildirib ki, Yeni Azərbaycan Partiyasının ilk rayon təşkilatı 1993-cü il yanvarın 23-də əbədiyaşar liderimiz Heydər Əliyevin iştirakı ilə Şərurda yaradılıb. O vaxt rayon təşkilatının 34 ərazi ilk təşkilatında 3 min nəfərə yaxın üzv var idi. Hazırda təşkilat 87 ilk təşkilatda 10 min 528 nəfər partiya üzvünü birləşdirir. Təşkilat üzvlərinin 6 nəfəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 336 nəfəri bələdiyyə üzvüdür. Hansı sahədə çalışmasından asılı olmayaraq, partiya üzvləri Heydər Əliyev yoluna sədaqət nümayiş etdirir, rayonun sosial-iqtisadi həyatının bütün sahələrində uğurla fəaliyyət göstərirlər.

Diqqətə çatdırılıb ki, blokada şəraitində yaşamağımıza baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun düşünülmüş siyasəti və ardıcıl fəaliyyəti nəticəsində qədim diyarımızda onlarca yeni istehsal və emal müəssisələri işə salınıb, məktəblərin, mədəniyyət və səhiyyə müəssisələrinin geniş şəbəkəsi yaradılıb, tikinti-quraşdırma tədbirlərinə yönəldilən investisiyanın həcmi ilbəil artırılıb. Bu tədbirlər Şərur rayonunu da əhatə edib. Artıq rayonun 50-dək yaşayış məntəqəsində geniş quruculuq tədbirləri aparılıb. Təkcə bir faktı qeyd edək ki, ötən il rayonda tikinti-quraşdırma tədbirlərinə yönəldilən investisiyanın həcmi 74 milyon 561,2 min manat, istehsal olunan sənaye məhsullarının həcmi 94 milyon 232,7 min manat, kənd təsərrüfatı məhsulları 148 milyon 37,9 min manat olub. Həyata keçirilən bütün tədbirlərdə Yeni Azərbaycan Partiyasının rayon təşkilatının üzvləri fəallıq göstəriblər.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası daim gəncləşən, sağlamfikirli ziyalıları ətrafında toplayan və arxasınca aparan bir siyasi təşkilatdır. Partiyamız dünya şöhrətli dövlət xadiminin rəhbərliyi ilə yarandığı kimi, bu gün də beynəlxalq aləmdə böyük hörmət və nüfuza malik olan liderin sədrliyi ilə cəmiyyətdə özünəməxsus aparıcı rola malik siyasi təşkilat kimi fəaliyyət göstərir. Respublikamızın davamlı inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünyanın inkişaf edən ölkələri sırasına layiqli yer tutması Yeni Azərbaycan Partiyasının təməlində duran prinsiplərin əməli surətdə həyata keçirilməsinin nəticəsidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura üzvü Tahir Əliyev, partiya fəallarından Şərur Olimpiya-İdman Kompleksinin direktoru Rza Camalov, Əli Nəcəfov, Naxçıvan Dövlət Universitetinin dosenti Seyfəddin Eyvazov çıxış ediblər.

Sonra partiya sıralarına yeni daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

**Elman MƏMMƏDOV**

## "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" uğurla icra olunur



Şərqin ən qədim və zəngin mədəni mərkəzlərindən biri olan Naxçıvanda digər sahələrlə yanaşı, dekorativ-tətbiqi sənətin növlərindən biri olan xalçaçılıq da böyük tarixi inkişaf yolu keçmişdir. Naxçıvan xalçaları nəinki Azərbaycanda, bütün dünyada öz dəst-xətti, süjetli kompozisiyası, ornamentləri, naxışları, bir sözlə, özünəməxsus spesifik xüsusiyyətləri ilə seçilir. Qədim ənənələrə malik xalçaçılıq sənəti bu gün də Naxçıvanda yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" bu sahədə görülən işləri daha da sürətləndirmiş, xalçaçılıq ənənələrinin daha dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar açmışdır.

Dövlət proqramında milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi yeni vəzifələr kimi müəyyənləşdirilmişdir. Ötən dövrdə bu istiqamətdə bir sıra təşkilati işlər görülmüş, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında milli ornamentlər əsasında, müasir bədii-estetik zövqü oxşayan müxtəlif ölçülərdə 35 xalça toxunmuş və dəyəri 8 min 439 manat olan 30 xalçanın satışı həyata keçirilmişdir. Emalatxanada işə təcrübəli xalçaçılarla yanaşı, gənclər də cəlb olunmuşlar.

Muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, kənd əhalisinin bu sənətə olan marağının artırılması məqsədilə Şərur rayonunun Cəlilkənd kəndindəki XIX əsrə aid "Buxzana" Kompleksində xalçatoxuma sahəsi fəaliyyətə başlamış, işçilər üçün müasir iş şəraiti yaradılmış, 5 hana quraşdırılmışdır. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" sosial layihəsi çərçivəsində 7 xalçaçı qadınla müqavilə bağlanmış, milli çeşnilər əsasında evlərdə xalça toxunması məqsədilə onlar material və avadanlıqlarla təmin olunmuşlar. Bu, məşğulluğu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan mühüm addımlardandır.

Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması da davam etdirilmişdir. Hazırda Naxçıvan şəhərində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin xalça istehsalı emalatxanasının tikintisi davam etdirilir.

Muxtar respublikada xalça istehsalı emalatxanalarının fəaliyyətə başlaması xammal bazasının yaradılması zərurətini meydana çıxarmışdır. Yun tədarükü və yun iplik istehsalı sahəsinin yaradılması məqsədi ilə texniki-iqtisadi araşdırmalar aparılmış və istehsal gücü saatda 48 kiloqram yun iplik olan layihə hazırlanmışdır. Bundan başqa, əllə toxunmuş xalçaların reyestr sistemi yaradılmış, 482 xalça haqqında məlumatlar reyestrə daxil edilmişdir. Naxçıvan xalçalarının dünya bazarında satışının həyata keçirilməsi üçün, ilk növbədə, onun təbliği və təqdimatı vacib şərtlərdəndir. Bu sahədə elektron ticarət mexanizmi vasitəsilə ixracın təşkili üzrə işlər görülmüşdür. Beləliklə, həm ölkə daxilində, həm də xaricdə satılacaq xalçalar iqtisadiyyata töhfə verməklə yanaşı, muxtar respublikada özəl sektorun inkişafına da əlavə stimul yaradacaqdır.

Xalçatoxuma sahələri yaratmaq, onları xammalla təmin etmək işin bir tərəfidirsə, digər mühüm bir istiqamət isə kadr hazırlığıdır. Ötən dövrdə Naxçıvan Şəhər Peşə Liseyində, Naxçıvan Regional Peşə Tədris Mərkəzində, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində xalçaçılıq kursunu müvəffəqiyyətlə bitirən 36 müdavimə müvafiq sertifikatlar təqdim olunmuşdur. Həmçinin Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının kadr təminatı ilə bağlı Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil edilən tədris-hazırlıq kursu hana, avadanlıq və xammalla, eyni zamanda xalçaçılıq sənətinə dair müvafiq ədəbiyyatlarla, dərsliklərlə və elektron çeşnilərlə təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Kollegiya iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində 2018-ci ildə görülmüş işlər və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasından irəli gələn vəzifələrlə bağlı kollegiya iclası keçirilib.*

İclası giriş sözü ilə açan nazir Niyazi Novruzov qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, ötən il də əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində işlər davam etdirilib. 2018-ci ildən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Muxtar respublikada fəaliyyət göstərən bir neçə səhiyyə müəssisəsi üçün yeni binalar tikilib və mövcud binalar yenidən qurulub, səhiyyə müəssisələrinə 15 təcili tibbi yardım avtomobili təqdim olunub.



Diqqətə çatdırılıb ki, diyarımızda uşaqların sağlamlığının qorunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasına başlanılıb.

Nazir qeyd edib ki, səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı daim nəzarətdə saxlanılır. Bunun ifadəsidir ki, səhiyyə müəssisələrində 34 hemodializ aparatı qurulub. Şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatının yaxşılaşdırılması istiqamətində də tədbirlər davam etdirilib.

Son illər qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb.

Nazir Naxçıvanda səhiyyə turizmi sahəsində görülən işlər barədə də danışaraq deyib ki, Duzdağ Fizioterapiya Mərkəzi, Darıdağ Arsenli Su Müalicəxanası, Diaqnostika-Müalicə Mərkəzində aparılan "Şorsu" vulkanik palçığı ilə müalicələr, eyni zamanda səhiyyə turizminin inkişafına da stimul verir. Nəticədə, muxtar respublikada 2018-ci ildən sanator-kurort müalicələrinə başlanılıb və ilk olaraq Azərbaycanın digər rayonlarından 198 əlilliyi olan şəxsin müalicə kursu keçməsi təşkil edilib. Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi publik hüquqi şəxsində "Şorsu" palçığı ilə müalicəyə gələnlərin sayı artmaqdadır.

Bu gün fizioterapevtik müalicələrin rayon və kənd səhiyyə müəssisələrində də aparılmasına şərait yaradılıb. Ali Məclis Sədrinin tapşırığı ilə 51 kənd həkim ambulatoriyası fizioterapevtik avadanlıqlarla təmin olunub.

Muxtar respublika ərazisində hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirlərinin genişləndirilməsi məqsədilə 27 dekabr 2016-cı il tarixdə Ali Məclisdə keçirilmiş müşavirədə Ali Məclis Sədrinin tapşırıqlarının icrası məqsədilə işlər bu gün də davam etdirilib.

Məruzə ətrafında nazirliyin Statistika və informatika sektorunun müdiri Kəmalə Həsənova, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov, Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Asiman Yusifov, nazirliyin Ümumi işlər sektorunun aparıcı məsləhətçisi Məhsəti Allahyarovanın çıxışları dinlənilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Müasirləşən kəndlərimiz

## Bir qış günü Qızıl Qışlaqda

*Şaxtalı, sazaqlı bir qış günündə yolum ucqar yaşayış məntəqələrindən sayılan Şahbuz rayonunun Qızıl Qışlaq kəndinədir. Dağlıq əraziyə ilk dəfə üz tutduğum üçün orada yaşayan sakinlərin məşğuliyyəti, onların gündəlik həyat tərzi barədə öyrənməyə olduqca maraqlıyam. Paytaxt Naxçıvan şəhərindən gedəcəyim ünvan arasındakı məsafənin 42 kilometr olduğunu nəzərə alıb səhərin erkən saatlarından hazırlaşıb yola çıxıram. Yolboyu gözlərim qarşısında qışın yaratdığı bənzərsiz mənzərələr fonunda bir-birini əvəzləyən füsunkar görünüşlü, abad, büsatlı günlərini yaşayan kəndlər canlanır. Donunu dəyişən ağaclar, nizamlı əsgər kimi sıra ilə düzülən, ağ örpəyə bürünən dağlar mahir rəssam əli ilə çəkilmiş gözəl bir qış tablosunu xatırladır. Çox keçmir ki, dağların sinəsinə çökən sis, duman ətrafa yayılır, göz-gözü görmür. Əyləşdiyim avtomobilin radiosunda xoş ovqat bəxş edən aşıq havasının təbiətin bu şıltaqlığı ilə harmoniya yaradan aşağıdakı misraları qulağımda çınlayır:*

*Duman, gəl-get bu dağlardan,*
*Dağlar təzə bar eyləsin.*
*Nə gözlərim səni görsün,*
*Nə könlüm qubar eyləsin.*



Ətrafı seyr etdikcə öz doğma kəndim yadıma düşür, qəlbimdə nostalji hisslər baş qaldırır. Təbiətin səsini dinləmək üçün maşının istidən tutqunlaşmış şüşəsini azacıq endirəndə bir andaca içəri tələsən qışın ayazlı yeli üzümə çırpılır. Yuxuya dalan ana təbiətin lal sükutunu dərələrin arasıyla üzüaşağı axan çayın zümzüməsi, qışda da bu gözəllikləri tərk etməyən, yuvalarına yem aparan quşların arabir eşidilən cəh-cəh səsləri pozur. Az sonra həmişəyaşıl ağaclarla əhatə olunan təmiz, səliqəli səkilərlə işgüc dalınca tələsən insanları, məktəbə üz tutan balaca fidanları görürəm. Budur, artıq Qızıl Qışlaq kəndinin mərkəzinə çatıram. İlk olaraq nəzərim yaraşıqlı kənd və xidmət mərkəzlərinə, məktəb binasına, eləcə də təpələrin sinəsində salınan evlərə yönəlir. Kənd və xidmət mərkəzləri ilə qısa tanışlıq zamanı burada sakinlərin rahatlığını, gündəlik məişət qayğılarını təmin edən yüksək şəraitin, zirzəmi ilə birlikdə 3 mərtəbəli, 110 şagird yerlik məktəb binasında isə hərtərəfli tədris şəraitinin olduğunu görürəm.

Kənddə həmsöhbət olduğum ilk sakin, 60 yaşlı Zibeyət Göyüşovadır. Deyir ki, ata-babalardan Qızıl Qışlağın qədim tarixə malik olduğunu, burada ilk vaxtlar 7 qohum ailənin yaşadığını eşitmişəm. Əvvəllər kəndin yuxarısında cəviz meşəsi olub, ağacların əhatəsində isə pir yerləşib. Ötən əsrin 90-cı illərinin gətirdiyi ağrı-acılar həmin meşədəki cəviz ağaclarına da sirayət etdi, soyuqdan əziyyət çəkən camaat əlacsız qalıb onları kəsib-doğradı. Lakin xeyirxah insanlar ziyarət yerinin uçub-dağılmasına imkan vermədilər, müstəqillik illərində ora abad məkana çevrildi. Yaz-yay aylarında bu tərəflərə yolunuz düşsə, həmin pirdə çoxlu ziyarətçi ilə qarşılaşarsız. İnsanlar niyyətlərinin qəbul olunması diləyi ilə bu ibadətgahı ziyarət edir, qəlblərində rahatlıq tapıb evlərinə dönürlər. Onu da deyim ki, kəndimizdə toy və yas mərasimlərimiz də adət-ənənəyə uyğun keçirilir. Qohum-əqrəba, qonum-qonşu bir-birlərinin xeyrində, şərində canla-başla iştirak edir, hərə bir işin qulpundan yapışır ki, ev sahibinin üzərinə çox yük düşməsin. Əsas məşğuliyyətimiz isə heyvandarlıq, bağçılıq və arıçılıqdır. Şəxsən mən özüm uzun illərdir, arıçılıqla məşğulam, təsərrüfatımda 35 arı ailəsi var. Çox gəlirli və səmərəli sahədir. Elə təsərrüfatım sayəsində də özümüzə gün-güzəran yaradıb, övladlarımı ev-eşik sahibi etmişəm. Kəndimizin əlverişli iqlimi arıçılar üçün geniş imkanlar açır. Mövsüm zamanı, bax o uca təpələrin üzəri arı yeşikləri ilə dolu olur. Kəndimizin müasir siması da bizi gördüyümüz işə məsuliyyətlə yanaşmağa, əzmlə çalışmağa səsləyir. Övladlarımız gözəl məktəb binasında təhsil alır, gənclərimiz də iş-güc sahibidirlər. Uca Yaradan da öz səxavətini bizdən əsirgəmir, yaz-yay aylarında dağlarımız, düzlərimiz min bir nazneməte bürünür. Elə baharın gözü açılandan arabir məhəllənin qızgəlinləri təbiətin bizə bəxş etdiyi nemətləri toplamağa çıxırlar.

Bənzərsiz təbiətə malik olan kəndin dayandığım hündür yerindən üzüaşağı evlər, həyətlər görünür. Onların birində qalaqlanan ot tayasını, başı işə qarışan zəhmətkeşləri, gizlənqaç oynayan uşaqları görərkən qeyri-iradi ayaq saxlayıram. Mənə tanış gələn bu mənzərələr qarşısında havanın sazağını qətiyyən hiss etmir, yerimdəcə donub qalıram. Xəyallarım məni düz 20 il bundan öncəyə götürüb aparır, uşaqlıq çağlarım gözümün önündən kino lenti kimi gəlib keçir. Qarşısında dayandığım həyət qapısının açılması ilə düşüncələrdən ayrılıram. Bayıra çıxan yaşlı bir kişi: – Buyur, keç qonağımız ol, qapımız həmişə qonaq üzünə açıqdır, – deyir. Salam verib, hal-əhval tuturam. Öyrənirəm ki, bayaqdan tamaşa etdiyim həyət Məmmədovlar ailəsinə məxsusdur. Məni mehriban təbəssümlə qarşılayan isə ailənin başçısı, yaşı 70-i adlamış Fətullah babadır. Həyətə daxil olan zaman onun həyat yoldaşı Cəlalə xanım da irəli yeriyib mənə xoşgəldin edir. Evin aynabəndində qoyulmuş stolun ətrafında mənə yer göstərir, samovar çayından bir stəkan süzüb qarşıma qoyur. Çayımızı içib bir qədər isindikdən sonra həyətə düşürük. Fətullah baba yerə sərilmiş quru ağac budaqlarını balta ilə doğramağa başlayır.

Az sonra həyətdə oynayan uşaqlardan birinin həyətdəki krantdan su içdiyini görür və yaxın quyu suyudur, – deyə babadan soruşuram. O isə yox, ay bala, bizim kənddə hər həyətdə bulaq suyu axır, – deyir. Əli ilə göstərərək, bax o görünən uca təpənin yamacında qaynayan bulağın gözündən çəkmişəm, suyu qışda ılıq, yayda isə bumbuz olur. Buyur, iç, bax dad-tamına, – deyib əlindəki dolu parçı mənə tərəf uzadır. Elə ilk qurtumdan ürəyimə gələn sərinliyi hiss edirəm. Fətullah baba qeyd edir ki, kəndimizdə həyat hər fəsildə öz gözəlliyini qoruyur. Qış aylarında da çətinliyimiz yoxdur, evdə qazımız yanır, işığımız şölələnir, yolumuz da ki abaddır, şəhərə də rahat gedib-gəlirik. Daha nə olmalıdır ki, bundan artıq? Mən də ilin bu vədəsində ağacların quru budaqlarından ona görə kəsib doğrayıram ki, arada həyətdə ya yemək bişirmək üçün ocaq qalamağa, ya da samovar salmağa lazım olur. Dədə-babadan görmüşük ki, od közündə bişən yeməyin, samovar çayının bir başqa dadı olar.

Kənardan diqqətlə bizi dinləyən Cəlalə nənə də söhbətə qoşularaq deyir ki, gözümü açıb ağlım kəsəndən rəhmətlik nənəmin uzun qış gecələrində corab, xalça toxuduğunu görmüşəm. Heç yadımdan çıxmaz, o illərdə axşam yeməyindən sonra qonum-qonşuda olan qız-gəlinlər bizə gələr, evimizdə böyük bir məclis qurulardı. Çay içə-içə, şirin söhbətlər edə-edə xalça toxuyardılar. Mən onda hələ məktəb yaşlarında idim. Ancaq nənəm mənə də balaca corablardan verər, ilmələri yarıəyri, yarıdüz salsam da, nənəmin: narahat olma, bala, yavaş-yavaş öyrənəssən, – deməyindən fərəhlənərdim. İndi o illərin üzərindən çox sular axıb. Mən özüm də artıq nənəyəm. Həmin adət-ənənəni bu gün də qoruyub yaşatmağa çalışıram. O dövrlə bu günün fərqi ondadır ki, daha axşamlar xalçanı nə közərən çıraq işığında toxuyur, nə də kaş ki yaxşı alına, – deyə, ümid edirik. İndi gecələrimiz də gündüzlərimiz kimi aydındır. Elə axşamlar qonum-qonşu ilə yığışıb iş görərkən söhbətarası həmin çətinlik illərini də xatırlayır, bugünkü firavan yaşayışı, nurlu gələcəyi bizə bəxş edənlərə xeyir-dua edirik.

Günorta yeməyindən sonra Fətullah baba heyvanları yemləmək üçün tövləyə gedir, Cəlalə nənə isə süfrəni yığışdırıb, sil-süpür, biş-düş işlərinə başlayır. Mən də bu zəhmət adamlarına: süfrəniz açıq, ruziniz həmişə belə bol, işiniz avand olsun, – deyib sağollaşıram.

Avtomobilə əyləşib şəhərə qayıdarkən bayaqdan səmada dolanan qara buludlar öz hünərini göstərməyə başlayır. Ya qismət, bu kəndə bir də nə vaxt gələm, – deyə fikirləşirəm və Qızıl Qışlağın başıqarlı dağlarından, dərələrindən uzanan mənzərələrini doyunca seyr edir, Xalq şairi Məmməd Arazın dillər əzbəri olan "Əlvida, dağlar" şeirinin aşağıdakı misralarını dodaqaltı pıçıldayıram:

*Bəlkə bu yerlərə bir də gəlmədim,*
*Duman, salamat qal, dağ, salamat qal.*
*Dalımca su səpir yoxsa buludlar?*
*Leysan, salamat qal, yağ, salamat qal!*

✍ **Nail ƏSGƏROV**

İstehsal müəssisələri

## "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyəti daxili bazarın qorunmasına öz töhfəsini verir

*Muxtar respublikamızın sürətli inkişafı ildən-ilə bütün sahələrdə uğurlu nəticələrin əldə olunmasına şərait yaradır. Son illərdə iqtisadiyyatın sürətli artım tempi həyata keçirilən uğurlu islahatların nəticəsi olmaqla yanaşı, həm də sahibkarlığa göstərilən yüksək diqqət və qayğının təzahürüdür. Yaradılan yeni istehsal müəssisələrinin sayının artması sahibkarlığın inkişafı ilə bərabər, daxili bazarın yerli məhsullarla təmin olunmasına da öz müsbət təsirini göstərir. Belə müəssisələrdən biri də Ordubad rayonunun Vənənd kəndində fəaliyyət göstərən "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətidir.*

Bu istehsal müəssisəsi 2013-cü ildə fəaliyyətə başlayıb. Müəssisənin əsas fəaliyyət istiqaməti Ordubadda yetişdirilən meyvələrdən keyfiyyətli qənnadı məhsulları hazırlamaqdır. Sahibkar Emin Məmmədovla söhbət zamanı öyrənirik ki, burada cəviz, ərik, gilənar, gilas, heyva, şaftalı, albuxara, armud, tut meyvələrindən və qızılgüldən mürəbbə və meyvə şirələri hazırlanır, boymadərən, bat-rınc, bizovşa, qırxbuğum, nanə və çayırotundan isə müalicəvi ekstraktlar hazırlanır. Hazırda 10 nəfərin çalışdığı müəssisədə işçilərin sayı mövsümə görə dəyişir. İl ərzində müəssisədə 100-ə yaxın çeşiddə məhsul istehsal olunur. Hazırlanan məhsullar üçün meyvələr Vənənd kəndi ilə yanaşı, Vələver, Qoruqlar, Ağrı, Dizə, Xanağa, Başkənd və digər ətraf yaşayış məntəqələrinin təsərrüfatlarından əldə edilir. Qablaşdırılmış məhsullar Ordubad, Naxçıvan və Bakı şəhərlərində satışa çıxarılır.

Sahibkar bildirir ki, Ordubad rayonu tarixən meyvəçilik sahəsində böyük inkişaf yolu keçmiş bölgələrdəndir. Rayonun adı dillər əzbəri olmuş meyvələri nəinki Azərbaycanda, hətta dünyanın bir çox ölkələrində şöhrət qazanıb. Lakin ötən əsrin sonlarında digər sahələr kimi, meyvəçilikdə də böyük böhran yaşandı. Vaxtilə min bir əziyyət hesabına salınmış meyvə bağları baxımsızlıq ucbatından diqqətdən kənarda qaldı. Ancaq, şükürlər olsun ki, bu gün muxtar respublikamızda kənd təsərrüfatı sahələrinə göstərilən dövlət qayğısı sayəsində meyvəçiliyin də şöhrəti özünə qaytarılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul etdiyi dövlət proqramları bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan verib. Bu sahədə görülən işlərin nəticəsidir ki, indi muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunda da yeni meyvə bağları salınır, tərəvəz sahələrinin həcmi ildən-ilə daha da artırılır. Elə biz də bu imkanlardan istifadə edərək Ordubadın yerli məhsullarını tanıtmaq üçün bu müəssisəni qurduq. Bu gün müəssisənin əsas vəzifəsi daxili bazarı yerli məhsullarla təmin etməkdən ibarətdir.

Sahibkar deyir ki, meyvəçiliyin inkişafına göstərilən hərtərəfli dövlət dəstəyi nəticəsində biz özümüz də meyvə ağaclarının əkininə başlamışıq. Bunun üçün 2 hektar sahədə müxtəlif meyvə tingləri əkmiş, əlavə olaraq 15 hektar torpaq sahəsi icarəyə götürmüşük. Ötən ilin payızında meyvə tingləri əkmək üçün seçmə meyvə dənələri tədarük etmişik. Bunun üçün 16 sot torpaq sahəsini toxum səpilmək üçün ayırmışıq. Bizim burada əsas məqsədimiz yerli meyvə tinglərinə üstünlük verməkdir. Ümid edirik ki, bir neçə ildən sonra əkdiyimiz meyvə ağacları bar verəcək və bu da istehsal prosesində məhsullarımızın maya dəyərinin aşağı salınmasına öz təsirini göstərəcəkdir.

Müsahibim bir vacib məqamı da vurğuladı ki, istər meyvələrin, istərsə də müalicəvi bitkilərin öz yığılma vaxtı var. Məhsulları toplayarkən onlara çox həssaslıqla yanaşmaq, toplanma qaydalarına əməl etmək lazımdır. Bu, hazırlanan məmulatların orijinal dadını özündə qoruyub saxlaması baxımından vacibdir.

Emin Məmmədovdan istehsal prosesi haqqında soruşuruq. Deyir ki, istehsalda ən çox diqqət yetirdiyimiz amil qablaşdırılan məhsulların sanitar-gigiyenik qaydalara uyğun olmasıdır. Buna görə də müəssisəyə gətirilən məhsullar əvvəlcədən seçilərək təmizlənir, çeşidlənir, burada gigiyenik qaydalara uyğun olaraq yuyulur. Qablaşdırılma prosesində də bu qaydalar ciddi nəzarət altında saxlanılır.

Hazırlanan məhsulları müxtəlif ticarət obyektlərinə göndərmək üçün müəssisəyə məxsus maşınlardan istifadə edilir. Bu məhsullar cəmiyyətin Naxçıvan şəhərində fəaliyyət göstərən mağazasında, eləcə də Bakı şəhərində yerləşən 3 mağazada satışa çıxarılır.



Sahibkar onu da qeyd etdi ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı muxtar respublikada fəaliyyət göstərən digər istehsal müəssisələri kimi, "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyəti istehsal etdiyi məhsullar da üzərində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu olan hədiyyəlik qutularda satışa çıxarılıb. Bu isə şübhəsiz, Naxçıvana gələn qonaqlar və yerli alıcılarda rəğbət doğurub, məhsulların daha həvəslə alınmasına imkan yaradıb. Onu da öyrəndik ki, müəssisə yeni layihələri reallaşdırmaq üçün öz təkliflərini aidiyyəti qurumlara təqdim edib.

Emin Məmmədov deyir ki, bu gün biz sahibkarlar dövlətin qayğı və diqqəti ilə əhatə olunmuşuq. Ona görə də öz doğma Vətənimizə sadiq olan hər bir vətəndaş muxtar respublikamızda yaradılan bu əlverişli şəraitdən maksimum yararlanmaqla iqtisadiyyatın möhkəmləndirilməsi, günü-gündən inkişaf edən diyarımızın rifahı naminə əlindən gələni əsirgəməməlidir. Hazırda muxtar diyarımızda müxtəlif istehsal sahələrinin inkişaf etdirilməsi üçün gözəl mühit yaradılıb. Biz sahibkarlar yaradılan bu şəraitdən bəhrələnib öz əməyi və fəaliyyətimiz ilə muxtar respublikamızın tərəqqisinə, dinamik inkişafına çalışmalıyıq.

Bu gün hər bir vətəndaş qarşıdakı dövr ərzində muxtar respublikamızın qət edəcəyi iqtisadi tərəqqi yolunun yeni möhtəşəm uğurlarla müşayiət olunacağına, doğma diyarımızın daha böyük nailiyyətlərə imza atacağına əmindir. Elə bunun nəticəsidir ki, Emin Məmmədovun timsalında digər sahibkarlar da yaradılan bu gözəl biznes mühitində səylə çalışır, iqtisadiyyatımızın güclənməsinə öz töhfələrini verirlər.

✍ **Gülcamal TAHİROVA**

*Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, onun inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Gələcəyimiz olan uşaqların sağlamlığı isə dövlətimizin sosial siyasətinin əsas istiqamətini təşkil edir. Ulu öndər uşaqların sağlamlığının vacibliyinə diqqət yetirərək deyirdi:* ***"Bu gün doğulan, dünyaya gələn uşaqlar, bu gün ilk addımlarını atan körpələr 21-ci əsrdə dünyanın məsələlərini həll edəcəklər, başəriyyəti yaşadacaqlar. Ona görə də uşaqların sağlamlığının təmin olunması və qorunması hər bir dövlət üçün çox böyük və müqəddəs vəzifədir".***

# Uşaqların sağlamlığı dövlətimizin sosial siyasətinin əsas prioritetidir

*(Dəyirmi masa)*




Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" uşaq əhalisinin sağlamlığının qorunmasında yeni mərhələ açıb. Proqramın həyata keçirilməsindən gözlənilən nəticələr, ümumilikdə, cəmiyyətimizə sağlam nəslin bəxş olunmasını, uşaqların sağlam həyat tərzini, uşaq ölümünün tamamilə azaldılmasını vəd edir.

"Şərq qapısı" qəzetinin redaksiyasında təşkil edilən dəyirmi masanın da əsas məqsədi dövlət proqramının qəbul olunmasından ötən dövr ərzində uşaqların sağlamlığı ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparmaq idi.

Dəyirmi masada Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Zərnigar Orucəliyeva, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkiminin müavini İlkay Əliyeva, Doğum Mərkəzinin Yenidoğulmuşlar şöbəsinin şöbə müdiri Hafizə Rzayeva, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-psixoloqu Minurə Əliyeva iştirak edirlər.

*– "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" uşaq əhalisinin sağlamlığının qorunmasına göstərilən dövlət qayğısının parlaq ifadəsidir. Həmin dövlət sənədi hər birimizin evində böyüyən və gələcək cəmiyyətimizin aparıcı qüvvələrinə çevriləcək uşaqlara, həm də onların valideynlərinə böyük töhfədir.*

**İlkay Əliyeva:**

– Muxtar respublikamızda uşaqların sağlamlığının qorunması sahəsində həmişə mühüm işlər görülmüş və görülməkdədir. Adıçəkilən dövlət proqramı isə böyüməkdə olan nəsillərə göstərilən dövlət qayğısının əyani ifadəsidir. Dövlət sənədinin məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onlar arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azalmasından ibarətdir. Elə uşaq ölümü hallarının sayının minimuma endirilməsi üçün əsaslı işlər həyata keçirilir. Həmçinin burada səhiyyə işçiləri qarşısında da mühüm vəzifələr qoyulmuşdur ki, hər kəs bu vəzifələrin öhdəsindən gəlməyə çalışır.

**Hafizə Rzayeva:**

– İcbari dispanserizasiya günümüzün vacib şərtlərindəndir. Dünya ölkələrinin əksəriyyətində bu, illərdən bəri həyata keçirilir. Artıq dövlət proqramının icrası ilə əlaqədar Doğum Mərkəzində də hamilə qadınların reyestri hazırlanır. Hamiləlik qeydiyyata alınan gündən kompüterə işlənilir, onlar haqqında bütün məlumatlar, eləcə də uşağın dünyaya gəlməsi sağlamlıq vəziyyəti qeyd olunur. Burada məqsəd məlumatların uşaq xəstəxanasına ötürülməsidir ki, sonrakı mərhələdə uşağın müşahidədə saxlanmasında həmin məlumatlardan istifadə olunsun. Bu, dispanserizasiyanın başlanğıcıdır. Həkimlər sonrakı mərhələdə uşaqda hər hansı bir ağır xəstəliklə qarşılaşanda həmin məlumatlar əsasında xəstəliyin ilkin başlanğıcı haqqında informasiya əldə edə biləcəklər. Bu da müalicənin vaxtında aparılması və effektivliyi ilə nəticələnəcək.

**Minurə Əliyeva:**

– Muxtar respublikamızda məhdud fiziki imkanlı uşaqların reabilitasiyası, təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının mənalı təşkili daim diqqət mərkəzindədir. Uşaqların dispanserizasiyası ilə bağlı dövlət proqramı fiziki məhdudiyyətlərə səbəb olan xəstəliklərin erkən aşkar olunmasında böyük əhəmiyyət kəsb edən sənəddir.

*– Dövlət proqramından gözlənilən nəticələrdən biri uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsidir. Dövlət sənədinin qəbulundan ötən dövr ərzində bu sahədə nə kimi işlər görülüb?*

**İlkay Əliyeva:**

– Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının iş planına əsasən ildə iki dəfə – yaz və payız mövsümlərində şagirdlər və məktəbəqədər müəssisələrdəki uşaqlar arasında tibbi müayinələr aparılır. Bu müayinələr uşaqların dispanserizasiya işini düzgün qurmaqda bizə kömək edir. Müayinələri Mərkəzi Uşaq Xəstəxanası tərəfindən təşkil olunmuş həkim briqadası aparır. Briqada pediatr, LOR, cərrah, stomatoloq, oftalmoloq, endokrinoloq, nevropatoloq və digər ixtisaslı həkimlərdən təşkil olunur. Müayinələrdən sonra patologiyalı uşaqlar xəstəxanamıza dəvət olunur, burada daha dəqiq və hərtərəfli, dərin müayinə edilirlər. Nəticədə, uşaqların ilkin dispanserizasiyası aparılır və həmin uşaqlar xəstəliyin xarakterinə görə qruplaşdırılır. Daha sonra xəstəliyinə uyğun olaraq bu uşaqlar mütəmadi nəzarətdə saxlanılır və təkrar müayinələr üçün xəstəxanamıza dəvət olunurlar.

Briqadamız, həmçinin rayon mərkəzlərində və kəndlərdə yerli tibb heyətilə birgə uşaqlar arasında müayinələr aparır. Oradakı müasir şərait bizə müayinələri hərtərəfli aparmağa kömək edir. Ehtiyac yarandıqda ağır patologiyalı uşaqlar uşaq xəstəxanasına dəvət olunur, burada daha dəqiq müayinə və müalicə olunurlar. Onu da qeyd etmək istəyirəm ki, muxtar respublikamızda keçirilən humanitar aksiyalardan uşaqlar da yararlanırlar. Tək bu ay ərzində təşkil olunan üç belə aksiyada tibbi müayinədən keçənlərin əksəriyyəti uşaq əhalisi olub.

*– Bu gün muxtar respublikada yaradılmış müasir səhiyyə infrastrukturu heç də dünyanın inkişaf etmiş ölkələrindən geri qalmır. Bunu diyarımıza gələn qonaqlar da vurğulayırlar. Xüsusilə də rayonlarımızda, ucqar dağ kəndlərimizdə tibb müəssisələrinin maddi-texniki bazalarının yaxşılaşdırılması, müasir tibbi texnika və avadanlıqlarla təchiz edilməsi tibb işçilərinin qarşısında əhalinin, eləcə də uşaqların sağlamlığı ilə bağlı ciddi vəzifələr qoyur.*

**Hafizə Rzayeva:**

– Həqiqətən də, qeyd etdiyiniz kimidir. Dəfələrlə paytaxtımızdan və xaricdən gələn həkim qonaqlarımız burada səhiyyə sahəsinə göstərilən qayğıya, müasir tibbi avadanlıqlara heyran qalıblar. Bütün bunların qarşısında hər bir tibb işçisinin vəzifəsi yalnız yaxşı işləmək, insanların sağlamlığına töhfə verməkdir.

**İlkay Əliyeva:**

– Biz rayonlarda, ucqar kəndlərdə həkim briqadaları ilə tez-tez oluruq. Bütün rayonlarda, kəndlərdə xəstəxanalar, ambulatoriyalar, feldşer-mama məntəqələri ən müasir cihaz və avadanlıqlarla təchiz olunub. 70 il sovet dövründə mərkəzi şəhərlərimizdə olmayan tibb ocaqlarını indi ən ucqar kəndlərimizdə görmək mümkündür. Bu isə əhaliyə, o cümlədən uşaqlara tibbi xidmətin ən müasir tələblər səviyyəsində qurulmasına imkan verir.

*– Sağlam ana sağlam uşaq, sağlam gələcək deməkdir. İlkin mərhələdə ananın dünyaya sağlam uşaq gətirməsi, onu süni yeməklərlə yox, ana südü ilə qidalandırması, peyvəndlərin vaxtlı-vaxtında aparılması, körpəyə düzgün yanaşma onların sağlamlıq imkanlarının məhdudluğunu və ölüm hallarını azaltmış olar.*

**Hafizə Rzayeva:**

– Təbii ki, ilk növbədə, diqqət yetirilməli məsələ budur ki, ana sağlam uşaq dünyaya gətirsin, o zaman uşağın vaxtlı-vaxtında müayinələrinə ehtiyac olacaq, müalicəsinə yox. Ana südü nədir? Ana südü genetik daşıyıcıdır. Sənin sağlamlığını, xarakterini, xüsusiyyətlərini uşağa ötürən yeganə vasitədir. Uşağın immun sistemini formalaşdıran, onu əksər xəstəliklərdən qoruyan, sağlam gələcək bəxş edən vasitədir. Eləcə də peyvənd. Peyvənd gələcəkdə yarana biləcək bir çox xəstəliklərin xoşagəlməz nəticələrinin qarşısını alır. Bunlar barədə xəstəxanamıza gələn hər bir ana ilə fərdi şəkildə söhbətlər olur.

*– Bu məsələ ilə əlaqədar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin muxtar respublikamızın bütün rayon və kəndlərində keçirdiyi tədbirlər haqqında məlumatımız var.*

**Zərnigar Orucəliyeva:**

– Bəli, komitə tərəfindən tək ötən il muxtar respublikanın 6 kənd mərkəzində 500-dək qadının iştirakı ilə "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilib. Bu tədbirlərdə sağlam uşaqların doğulması üçün qadınların hamiləlik dövründə müvafiq analizlərdən, tibbi müayinələrdən keçməsi, qohum və erkən nikahların fəsadları, bu nikahlardan sağlamlığı məhdud uşaqların dünyaya gəlməsi haqqında iştirakçılara ətraflı, həm də slayd vasitəsilə məlumatlar verilib. 10 adda 1230 maarifləndirici broşürlər keçirilən tədbirlərdə iştirakçılara paylanıb.

**Hafizə Rzayeva:**

– Sağlam uşağın dünyaya gəlməsində ananın hamiləlik dövründə necə qidalanması, geyinməsi, neçə saat istirahət etməsi, təmiz havada olması, ümumilikdə, gündəlik yaşayış tərzini necə qurması vacib şərtlərdən biridir. Təcrübə göstərir ki, kompüter qarşısında çox əyləşən, smartfon telefonlardan saatlarla istifadə edən, dar paltarlar geyinən anaların uşaqları ana bətnində travma alırlar ki, bu da onların sonrakı həyatında fiziki-psixoloji problemlərlə nəticələnir. Ona görə də ana olmağa hazırlaşan hər bir qadın yuxarıda qeyd olunanları nəzərə almalı, sağlam həyat tərzi keçirməlidir.

**Minurə Əliyeva:**

– Elə uşaqların sağlamlıq imkanlarının məhdudlaşmasına da bəzi anaların məsuliyyətsizlikləri səbəb olur. Məsələn, autizm, nitq qüsurlu uşaqlarda bu çatışmazlıqların başlıca səbəbləri saatlarla televizora baxmaq, telefonla təmasda olmaqdır. Uşağa vaxt ayırmaq, onunla söhbətləşmək lazımdır ki, nitqi inkişaf eləsin. Təəssüf ki, əksər analar bunu etmir. Uşaq saatlarla televizorda yaşına uyğun olmayan cizgi filmlərinə baxır, aqressivləşir. Ya da saatlarla özünə qapılıb masanın altında gizlənir. Biganəlik uşağın cəmiyyətə inteqrasiya oluna bilməməsi ilə nəticələnir.

**Hafizə Rzayeva:**

– Dövlətin qayğısı göz önündədir. O, vətəndaşını düşünür, uşaqların gələcəyini fikirləşir. Axı valideyn, xüsusilə uşaqla daha çox bir yerdə olan ana öz övladının sağlamlığını hər kəsdən əvvəl fikirləşməlidir. Ona vaxt ayırmalı, təmasda olmalıdır.

**İlkay Əliyeva:**

– Valideyn, sahə həkimi, ixtisas həkimi üçlüyü uşaqların dispanserizasiyasında uğurla nəticələnə bilər. Uşağın vəziyyətinə ilk nəzarətçi ana olmalı, bu barədə sahə həkiminə məlumat verməlidir. Sahə həkimi isə ixtisas həkimləri ilə birgə fəaliyyət göstərərək dispanserizasiya işini düzgün təşkil edə bilərlər.

*– Dövlət proqramının 2.2.5 bəndində qeyd olunur ki, uşaqlar və valideynlər arasında xəstəliklərin profilaktikası məqsədilə maarifləndirmə işi gücləndirilməlidir.*

**İlkay Əliyeva:**

– Rayon, şəhər və kəndlərimizin hər birində uşaqların dispanserizasiyası səhiyyə maarifi işi ilə paralel aparılır.

**Hafizə Rzayeva:**

– Elə yuxarıda sadalanan fikirlərin hər birini rayon və kəndlərə həkim briqadaları tərkibində gedərkən dəfələrlə valideynlərə çatdırırıq. Maarifləndirmə işi hər bir həkimin müayinəsi və müalicəsi ilə yarıdır. Bu, bizim vəzifə borcumuzdur.

*– Maraqlı fikirlərinizə və gərəkli təkliflərinizə görə hər birinizə minnətdaram. Söhbətimizi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəyərli fikirləri ilə yekunlaşdırmaq istəyirəm:* ***"Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər".***

**Hazırladı: Mətanət MƏMMƏDOVA**

---

## Uşaq bağçasında əyləncəli intellektual oyun




*Naxçıvan şəhər 3 nömrəli uşaq bağçasında məktəbəqədər hazırlıq qruplarında olan 5-6 yaşlı uşaqlar arasında "Ağıllı uşaq" əyləncəli intellektual oyunu keçirilib.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyeva bildirib ki, tədbirin keçirilməsində məqsəd intellektual oyunlara uşaqların marağının artırılması, kiçik yaşlarından başlayaraq onların əqli qabiliyyətlərinin və məntiqi düşüncələrinin inkişaf etdirilməsidir. Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Gülər Əhmədova və Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı Orxan Məhərrəmov çıxış edərək muxtar respublikada uşaqlara göstərilən dövlət qayğısından danışıblar.

İki mərhələdən ibarət olan oyunda 4 komanda iştirak edib. Birinci mərhələdə uşaqlar butona basmaqla 25 sualı, ikinci mərhələdə isə onlara təqdim olunan 5 şəkilli sualı cavablandırıblar.

Sonda daha çox suala düzgün cavab verən "Bənövşə" komandası qalib adını qazanıb. "Lalə" komandası ikinci, "Qızılgül" və "Nərgiz" komandaları üçüncü olublar.

Qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və rəngli kitablar təqdim olunub.

Qeyd edək ki, intellektual oyun Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib. Oyun Gənclər və İdman Nazirliyinin rəsmi sosial şəbəkə hesablarında canlı olaraq yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

---

## Seminar-treninq keçirilib

*Dünən "Ədəbiyyat profilli muzeylərdə uçot-mühafizə işinin təşkili" mövzusunda Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində muzey əməkdaşları üçün seminar-treninq keçirilib.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sisteminə daxil olan muzeylərin əməkdaşlarının iştirak etdiyi tədbirin məqsəd və əhəmiyyətindən danışan nazirliyin baş məsləhətçisi Qumral Əsədova bildirib ki, keçirilən seminar-treninqlərdə bu mədəniyyət müəssisələrinin əməkdaşları vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat əldə etmiş olurlar. Belə tədbirlərdə muzey əməkdaşlarına həmin sahədə həyata keçirilən yeniliklərdən söhbət açılır, onların sualları cavablandırılır.

Vurğulanıb ki, 2018-ci ildə muxtar respublikanın muzeylərinə 1564 eksponat daxil olub. Bu müddətdə muzeylərimizi 592 min 683 nəfər tamaşaçı ziyarət edib ki, onlardan da 178 mindən çoxu xarici ölkə vətəndaşıdır. Ötən il muzeylərimizdə 19 seminar-treninq keçirilib, muzey işi ilə bağlı 4 dəyirmi masa təşkil edilib.

Tədbirdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova "Ədəbiyyat profilli muzeylərdə uçot-mühafizə işinin təşkili" mövzusunda çıxış edib.

Həmin gün tədbir iştirakçıları Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyində də olublar.

**Əli RZAYEV**

## Babək rayonunda idmanın mövcud vəziyyəti müzakirə olunub

*2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı Babək Rayon İcra Hakimiyyətində yığıncaq təşkil olunub.*



Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxışında bildirib ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə Naxçıvanda müasir idman infrastrukturu yaradılıb, uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün kompleks tədbirlər görülüb, orta məktəblərdə açıq idman qurğuları, mini-futbol meydançaları, idman zalları istifadəyə verilib.

Qeyd olunub ki, Babək rayonunda ayrı-ayrı idman növləri üzrə 12 federasiya bölməsi fəaliyyət göstərir. Rayon üzrə 5063 nəfər idmanla məşğul olur ki, onlardan 4115-i oğlan, 948-i isə qızdır. Ötən dövr ərzində sağlamlıq imkanı məhdud 32 uşaq da idmana cəlb olunub.

İcra başçısı bildirib ki, verilən tapşırıqlara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Babək Rayon İcra Hakimiyyətinin 2019-cu ildə idman sahəsində görüləcək işlərin tədbirlər planı təsdiq edilib.

Ötən il müxtəlif idman növləri üzrə əldə olunan uğur və nailiyyətlərdən söz açan Rasim Hüseynov diqqətə çatdırıb ki, babəkli şahmatçı Əli Əliyev Mingəçevir şəhərində keçirilən Azərbaycan birinciliyinin zona yarışlarında və Türkiyə Respublikasının Ordu şəhərindəki yoldaşlıq turnirlərində iştirak edib, hər iki yarışda II yerin sahibi olub. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda keçirilən birincilikdə Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin komandası II yerə çıxıb.

Qeyd olunub ki, karate-do ilə məşğul olan Vayxır məktəblisi Vüsal Seyidov ötən il İran İslam Respublikasında keçirilən beynəlxalq turnirlərdə 2 qızıl medal qazanıb. Qaydasız döyüş yarışlarında Rəzzaq Əliyev, sərbəst güləşdə Heydər Nəcəfov, kikboksinqdə Yusif Quluzadə, boksda Ülvi Süleymanov, bədii gimnastikada Günəş Hüseynova ötən il muxtar respublika, ölkə və dünya əhəmiyyətli turnirlərdə uğurlu çıxışları ilə seçilib, müxtəlif mükafatların sahibi olublar.

Qarşıda duran vəzifələrdən də bəhs edən icra başçısı deyib ki, qazanılan uğur və nailiyyətlərə baxmayaraq, istedadlı idmançıların üzə çıxarılması, federasiyalarla birgə iş və digər sahələrdə nöqsanlar hələ də qalmaqdadır. Cari ildə federasiyaların rayon bölmələri Babək Rayon Gənclər və İdman İdarəsi ilə birgə iş qurmalı, müxtəlif yarışlar təşkil olunmalıdır. Rayon Uşaq-gənclər şahmat və idman məktəbləri işlərində dönüş yaratmalı,Təhsil Şöbəsi ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarəti daha da gücləndirməli, məktəblilərin fiziki cəhətdən sağlam böyüməliləri üçün səylə çalışmalıdır. Rayon İcra Hakimiyyəti federasiyadaxili yarışların təşkilinə diqqəti artırmalıdır.

Yığıncaqda rayon Gənclər və İdman İdarəsinin rəisi Elvin Əliyevin və Təhsil Şöbəsinin müdir əvəzi Həsən Zeynalovun çıxışları olub.

**Muxtar RZAZADƏ**

## Karateçilərimizdən 13 medal




18-20 yanvar tarixlərində Bakı Əl Oyunları Sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş karate üzrə "Arpaçay Open" beynəlxalq turniri keçirilib.

Turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının idmançıları da mübarizə aparıb.

Karateçilərimiz beynəlxalq turnirdə 13 müxtəlif əyarlı medal qazanıblar.

Belə ki, oğlanlar arasında 18-23 yaş qrupunda Sərcan Məmmədov, 23-25 yaş qrupunda Mircavid Seyidzadə bütün rəqiblərinə qalib gələrək birinci olublar. 16-17 yaş qrupunda Aslan İsmayılov (+76 kiloqram) gümüş, bu yaş qrupunda Murad Ələkbərov isə (-76) bürünc medal qazanıb. Mirpaşa Kərimzadə də 18-23 yaş qrupunda fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Qızların mübarizəsində isə 8-9 yaş qrupunda Zəhra Məmmədova (+28 kiloqram) hamıdan güclü olub. 6-7 yaş qrupunda Fatimə Bağırzadə (24 kiloqram) və 10-11 yaş qrupunda Ayan Məmmədova (-40 kiloqram) gümüş medal qazanıblar. +28 kiloqram çəki dərəcəsində Aminə Novruzzadə, +30 kiloqram çəki dərəcəsində Özləm Hacıyeva (hər ikisi 8-9 yaş qrupu), -35 kiloqram çəki dərəcəsində Nərgiz İsmayılova və 35 kiloqram çəki dərəcəsində Nərgiz Həsənli (hər ikisi 10-11 yaş qrupu) isə turniri üçüncü pillədə başa vurublar. Özləm Hacıyeva, həmçinin kata yarışlarında da üçüncü olub.

Qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

## Ağır atletimizdən uğurlu nəticə



Azərbaycanın bütün bölgələrini əhatə edən ağır atletika üzrə respublika yarışlarının 1-ci seçmə mərhələ yarışları keçirilir. Məqsəd regionlarda atletlərin hazırlıq səviyyəsinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağır atletika idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsidir.

Xırdalan, Lənkəran və Samux şəhərlərində keçirilən yarışlarda Bakı (bütün idman cəmiyyətləri), Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı, Cəlilabad, Neftçala, Lənkəran, Lerik, Astara, Goranboy, Gəncə, Samux, Qazax, Yevlax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar. Mərhələ yarışlarında 2001-2007-ci illər və daha böyük təvəllüdlü kişilər və qadınlar müvafiq yaş qruplarında mübarizə aparırlar.

9 gün davam edəcək yarışda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi Gülcahan Əliyeva da iştirak edib. İdmançımız mərhələ yarışlarında öz yaş qrupunda (15 yaş) ikinci olub.

Qeyd edək ki, mərhələ yarışları ildə 4 dəfə keçirilir.

## Cüdo üzrə şəhər birinciliyi başa çatıb



İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində "Zərərli vərdişlərə yox deyək, hamışə sağlam olaq" devizi altında kiçikyaşlı yeniyetmələr (2007-2009-cu illər) arasında cüdo üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Güləş Federasiyası ilə Gənclər və İdman İdarəsinin birgə təşkil etdikləri açıq birincilikdə 10 çəki dərəcəsi üzrə 70-dən çox idmançı iştirak edib. Açıq birincilikdə Naxçıvan şəhərinin cüdoçuları ilə yanaşı, Culfa rayonunun idmançıları da mübarizə aparıblar.

Cüdonun mövcud qaydalarına uyğun olaraq keçirilən açıq birinciliyin yekununa əsasən Yusif Əhmədli (23 kiloqram, Naxçıvan), Rəhim Qaybalıyev (27 kiloqram, Naxçıvan), Qurban Məmmədli (30 kiloqram, Culfa), İlham Məmmədli (34 kiloqram, Culfa), Yusif Quliyev (38 kiloqram, Culfa), Asiman Muradov (42 kiloqram, Culfa), Faiq Məmmədli (46 kiloqram, Naxçıvan), Əli Cəfərzadə (50 kiloqram, Naxçıvan), Üfüq Ələkbərov (55 kiloqram, Naxçıvan) və Sadiq Həsənzadə (60 kiloqram, Naxçıvan) birinci yerlərə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar diplomla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Dövlət Universitetində 2018-2019-cu tədris ilinin qış semestrində 70-ə yaxın imtahan keçirilir. Tələbələr elektron qaydada təşkil edilən imtahanlarla yanaşı, ənənəvi – yazılı qaydada da imtahan verirlər. Qeyd edək ki, keçirilən yazılı imtahanlar üçün də xüsusi nəzarət sistemi tətbiq edilən otaq yaradılıb.*

## Qış imtahan sessiyası keçirilir



Ali təhsil müəssisəsinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov keçirilən növbəti elektron imtahanların gediş prosesi ilə tanış olub, elektron imtahanların tətbiqi ilə bağlı tələbələrin arzu və təkliflərini öyrənib.

Qış semestrində 1202 monitorinq və elektron qaydada 21672 tələbə imtahan verəcək. Bundan başqa, xüsusi qabiliyyət tələb edən və şifahi qaydada 210 imtahan keçirilməsi nəzərdə tutulub.

2012-ci ildən etibarən keçirilən elektron imtahanlar bu semestr 7 elektron və 3 yazılı olmaqla, kamera ilə təchiz edilmiş 10 otaqda imtahan komissiyası üzvlərinin nəzarəti ilə aparılır.

Qeyd edək ki, bu gündək elektron test üsulu ilə keçirilən imtahanlar obyektivlik və şəffaflığın gözlənilməsi, tələbələrin öz biliklərini operativ şəkildə ortaya qoyması, obyektiv qiymətləndirmə baxımından böyük üstünlükləri ilə özünü doğruldub. İmtahan zallarında vebkameraların quraşdırılması şəffaflığın ən bariz nümunəsi hesab oluna bilər. Tələbələr müəyyən olunmuş vaxt ərzində kompüterin köməyi ilə 50 suallı cavablandırır, nəzarətçilər tələbənin imtahana başlamasını və bitirdiyini təsdiqlədikdən sonra tələbə imtahan nəticələri ilə bağlı dərhal məlumat əldə edə bilir. Hər sual 1 balla qiymətləndirilir.

Elektron imtahanların gedişində ciddi texniki problemlərə, xoşagəlməz hallara rast gəlinərsə, tələbənin şikayətinə baxılması və obyektiv həlli məqsədilə apellyasiya komissiyası yaradılıb. Gələcəkdə tədris edilən fənlərin keyfiyyətini daha da yüksəltmək üçün imtahan suallarının artırılması və təkmilləşdirilməsi nəzərdə tutulub.

Məlumat üçün onu da bildirək ki, hər il olduğu kimi, bu il də universitetdə I kursları məlumatlandırmaq məqsədilə maarifləndirici tədbir keçirilib. Universitetin Tədris şöbəsinin müdiri Şahin Əliyev, İKT və elektron şöbəsinin elektron təhsil üzrə müavini Elgün Tağıyev imtahan prosesinin gedişi haqda ətraflı məlumat verib, tələbələrin suallarını cavablandırıblar.

**Səadət ƏLİYEVA**

## Snayper hazırlığı kursu yekunlaşıb



***Naxçıvan Qarnizonu qoşunlarında növbəti mütəxəssis snayper hazırlığı kursunun başa çatması münasibətilə keçirilən mərasimdə əvvəlcə Türkiyə və Azərbaycan respublikalarının Dövlət himnləri səsləndirilib.***

Məzunlar adından çıxış edən kurs birincisi gizir Şahmar Orucov bildirib ki, real döyüş əməliyyatlarına yaxın təşkil edilmiş məşğələlərdə qazandıqlarımız təcrübə nəticəsində ən çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirməyə hazırıq. Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu, piyada qədəmli baş çavuş Murad Bayraqdar kursda qazanılan nailiyyətlərdən danışıb. Bildirilib ki, kurs zamanı gecə və gündüz şəraitində snayper tüfənglərindən müxtəlif məsafələrdə yerləşən hədəflərə ən çətin atışlar icra edilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Tehran Mənsimov kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək bildirib ki, hər iki qardaş ölkənin hərbi qulluqçularının kurs zamanı keçirilən məşğələlərdə vətənpərvərlik hissləri ilə peşəkarlıq nümayiş etdirməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunun əyani göstəricisidir. Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi mütəxəssis snayper hazırlığı kursunda şəxsi heyətə kəskin relyef və iqlim şəraitində fəaliyyət göstərmək üçün dözümlü, təmkinli və yüksək fiziki hazırlığa malik olmaq kimi xüsusiyyətlər aşılanıb.

Çıxışların ardından kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar və döş nişanları təqdim edilib. Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub.

## Komandir heyətləri təlim toplantılarına cəlb ediliblər

Naxçıvan Qarnizonunda bölük, batareya komandirləri və müavinlərinin, taqım komandirləri və müxtəlif kateqoriyalı zabitlərin komandir hazırlığı və təlim-metodiki toplantıları keçirilib.

Toplantılara cəlb edilmiş zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktik vərdişləri, döyüş zamanı tabelikdə olan bölmələri idarəetmə bacarıqları yoxlanılıb. Zabitlərdən müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman onlar yüksək nəticə göstəriblər.

Hazırda isə Naxçıvan Qarnizonu qoşunlarının birləşmə, hissə komandirləri və müavinləri ilə komandir hazırlığı toplantısı keçirilir.

**Nəriman NƏCƏFOV**

***İtmişdir***

Əsgərov Surac Şakir oğlunun adına olan gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 64